## Bank hesabı

### Maddə 954. Bank hesabı müqaviləsi

954.1. Bank hesabı müqaviləsinə görə bank müştəriyə (hesabın sahibinə) açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür.

954.2. Bank hesabda olan pul vəsaitinə dair müştərinin maneəsiz sərəncam vermək hüququna qarantiya verməklə, bu vəsaitdən istifadə edə bilər.

954.3. Bank müştərinin pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz, habelə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz.

954.4. Bu fəslin banklara aid qaydaları verilmiş xüsusi icazəyə (lisenziyaya) müvafiq surətdə bank hesabı müqaviləsi bağlayan və icra edən başqa kredit təşkilatlarına və poçt rabitəsinin milli operatoruna da tətbiq olunur.[402]

### Maddə 955. Bank hesabı müqaviləsinin forması

955.1. Bank hesabı müqaviləsi yazılı formada bağlanır.

955.2. Bank hesabı müqaviləsinin yazılı formasına riayət edilməməsi bu müqavilənin etibarsızlığına səbəb olur. Belə müqavilə əhəmiyyətsizdir.

### Maddə 956. Bank hesabı müqaviləsinin bağlanması

956.1. Bank hesabı müqaviləsi bağlanarkən müştəriyə və ya onun göstərdiyi şəxsə tərəflərin razılaşdırdığı şərtlərlə bankda hesab açılır.

956.2. Bank həmin növ hesabların açılması üçün bankın elan etdiyi, qanunda nəzərdə tutulmuş və qanuna əsasən bank qaydaları ilə müəyyənləşdirilmiş tələblərə uyğun şərtlər əsasında hesab açmaq təklifi ilə müraciət etmiş müştəri ilə bank hesabı müqaviləsi bağlamalıdır.

956.3. Hesab üzrə müvafiq əməliyyatların aparılması qanunla, bankın nizamnaməsi və ona verilmiş xüsusi icazə (lisenziya) ilə nəzərdə tutulduqda, bankın həmin hesabın açılmasından imtina etməyə ixtiyarı yoxdur, amma

belə imtinanın bank xidmətinə qəbul etməyə bankın imkanının olmaması ilə bağlı olduğu və ya buna qanunla, yaxud başqa hüquqi aktlarla yol verildiyi hallar istisna təşkil edir.

956.4. Bank hesabı müqaviləsinin bağlanmasından bank əsassız boyun qaçırdıqda müştərinin onu müqavilə bağlamağa məcbur etmək tələbi ilə məhkəməyə müraciət etməyə ixtiyarı vardır. Bank hesabı müqaviləsi bağlamaqdan əsassız boyun qaçıran bank müştəriyə bununla vurulmuş zərərin əvəzini ödəməlidir.

**Maddə 957. Hesabda olan pul vəsaitinə dair sərəncam vermək hüququnun təsdiqi**

957.1. Hesabdan vəsaitin köçürülməsi və verilməsi haqqında müştərinin adından sərəncamlar verən şəxslərin hüquqları qanunda nəzərdə tutulmuş, qanuna əsasən bank qaydaları və bank hesabı müqaviləsi ilə müəyyənləşdirilmiş sənədlərin müştəri tərəfindən banka təqdim olunması yolu ilə təsdiq edilir.

957.2. Üçüncü şəxslərin tələbi ilə, o cümlədən müştərinin bu şəxslər qarşısında öhdəliklərini yerinə yetirməsi ilə bağlı tələbi üzrə müştəri pul vəsaitinin hesabdan silinməsi haqqında banka sərəncam verə bilər. Bank belə sərəncamları bu şərtlə qəbul edir ki, müvafiq tələb irəli sürülərkən onu irəli sürməyə hüququ çatan şəxsi eyniləşdirməyə imkan verən lazımi məlumatlar həmin sərəncamlarda yazılı formada göstərilmiş olsun.

957.3. Müqavilədə hesabdakı pul məbləğlərinə dair sərəncam hüququnun elektron ödəmə vasitələri və öz əli ilə imza analoqlarından, kodlardan, parollardan və sərəncamın buna vəkil edilmiş şəxs tərəfindən verildiyini təsdiqləyən digər vasitələrdən istifadə olunmaqla başqa sənədlər ilə təsdiq edilməsi də nəzərdə tutula bilər.

957.4. Əgər bank hesab sahibinin həqiqi iradəsini ifadə etməyən sərəncam əsasında pul vəsaitini həmin hesabdan silərsə, bunun üçün məsuliyyət daşıyır, bir şərtlə ki, belə sərəncamın hesab sahibinin öz təqsiri üzündən verildiyini sübut edə bilməsin.[403]

**Maddə 958. Bankın apardığı hesab əməliyyatları**

Bank müştəri üçün həmin növ hesablardan ötrü qanunla, qanuna əsasən müəyyənləşdirilmiş bank qaydaları ilə və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə nəzərdə tutulan əməliyyatlar aparmalıdır, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı hal nəzərdə tutulmasın.

### Maddə 959. Hesab əməliyyatlarının müddətləri

959.1. Bank müştərinin hesabına daxil olmuş pul vəsaitini müvafiq ödəniş sənədinin banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq hesaba salmalıdır, bu şərtlə ki, qanunda və ya bank hesabı müqaviləsində daha qısa müddət nəzərdə tutulmasın.

959.2. Müştərinin sərəncamı ilə bank müştərinin pul vəsaitini müvafiq ödəniş sənədinin banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq verməli və ya hesabdan köçürməlidir, bu şərtlə ki, qanunla, qanuna uyğun qəbul edilmiş bank qaydaları ilə və ya bank hesabı müqaviləsi ilə ayrı müddətlər nəzərdə tutulmasın.

### Maddə 960. Hesabın kreditləşdirilməsi

960.1. Bank hesabı müqaviləsinə müvafiq surətdə, pul vəsaitinin olmadığına baxmayaraq, bankın ödənişləri həyata keçirdiyi hallarda (hesabın kreditləşdirilməsi) bank bu cür ödənişi həyata keçirdiyi gündən müştəriyə müvafiq məbləğdə kredit vermiş sayılır.

960.2. Tərəflərin hesabın kreditləşdirilməsi ilə bağlı hüquq və vəzifələri borc və kredit haqqında qaydalarla müəyyənləşdirilir, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı hal nəzərdə tutulmasın.

### Maddə 961. Hesab əməliyyatlarının aparılmasına bankın xidmətlərinin haqqının ödənilməsi[404]

961.1. Müştəri hesabdakı pul vəsaiti ilə əməliyyatların aparılması üzrə bank xidmətlərinin haqqını ödəyir.[405]

961.2. Bu Məcəllənin 961.1-ci maddəsində nəzərdə tutulmuş bank xidmətlərinin haqqını bank hər bir əqd başa çatdıqdan sonra müştərinin hesabdakı pul vəsaitindən tuta bilər, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmasın.

### Maddə 962. Pul vəsaitindən bankın istifadə etməsi üçün faizlər

962.1. Əgər bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bank müştərinin hesabında olan pul vəsaitindən istifadə etməsi üçün faizlər ödəyir və bu faizlərin məbləği hesaba salınır.

962.2. Bu Məcəllənin 962.1-ci maddəsində göstərilən faizlər bank tərəfindən bank hesabı müqaviləsində müəyyənləşdirilmiş miqdarda, müqavilədə müvafiq şərt olmadıqda isə bu bankın tələbli əmanət üzrə müəyyənləşdirdiyi miqdarda ödənilir.

962.3. Faizlərin məbləği müqavilədə nəzərdə tutulmuş müddətlərdə, müqavilədə bu cür müddətlər nəzərdə tutulmadıqda isə hər rübün axırında hesaba salınır.

**Maddə 963. Bankın və müştərinin hesab üzrə qarşılıqlı tələblərinin əvəzləşdirilməsi**

963.1. Hesabın kreditləşdirilməsi və bank xidmətlərinin haqqının ödənilməsi ilə bağlı bankın müştəriyə qarşı pul tələblərinə, habelə pul vəsaitindən istifadə üçün faizlərin ödənilməsi haqqında müştərinin banka qarşı tələblərinə əvəzləşdirmə yolu ilə xitam verilir, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmasın. Göstərilən tələblər bank tərəfindən əvəzləşdirilir.

963.2. Bank aparılmış əvəzləşdirmə haqqında müştəriyə müqavilədə nəzərdə tutulmuş qaydada və müddətlərdə, əgər tərəflər müvafiq şərtləri razılaşdırmayıblarsa, müvafiq hesabdakı pul vəsaitinin vəziyyəti haqqında müştərilərə məlumat verilməsinin bank praktikası üçün adi olan qaydada və müddətlərdə məlumat verməlidir.

**Maddə 964. Pul vəsaitinin hesabdan silinməsinin əsasları**

964.1. Hesabdan pul vəsaitinin silinməsini bank müştərinin sərəncamına əsasən həyata keçirir.

964.2. Müştərinin sərəncamı olmadan hesabdakı pul vəsaitinin silinməsinə məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla müştəri arasında müqavilədə nəzərdə tutulmuş hallarda yol verilir.

**Maddə 965. Hesabdan pul vəsaitinin silinməsinin növbəliyi**

965.1. Hesabdakı pul vəsaitinin məbləği hesaba qarşı irəli sürülən bütün tələbləri ödəməyə kifayət etdikdə hesabdan bu vəsaitin silinməsi müştərinin sərəncamlarının və hesabdan silməyə dair digər sənədlərin daxil olduğu ardıcıllıqla (təqvim ardıcıllığı) həyata keçirilir, bu şərtlə ki, qanunda ayrı qayda nəzərdə tutulmasın.

965.2. Hesabdakı pul vəsaiti müştərinin sərəncamlarını və ona qarşı irəli sürülmüş bütün tələbləri yerinə yetirməyə kifayət etmədikdə hesabdan pul vəsaiti aşağıdakı ardıcıllıqla silinir:

965.2.1. birinci növbədə həyata və ya sağlamlığa vurulmuş zərərin ödənilməsi haqqında tələblərin, habelə alimentlərin tutulması haqqında tələblərin yerinə yetirilməsi üçün hesabdan pul vəsaitinin köçürülməsini və ya verilməsini nəzərdə tutan sənədlər və yaxud bu sənədlər əsasında verilən icra sənədi üzrə hesabdan silmə həyata keçirilir;[406]

965.2.2. ikinci növbədə əmək müqaviləsi ilə işləyən şəxslərə işdənçıxma müavinətlərinin və əmək haqqının ödənilməsi üzrə və müəlliflik müqaviləsinə görə haqların ödənilməsi üzrə hesablaşmalar üçün pul vəsaitinin köçürülməsini və ya verilməsini nəzərdə tutan sənədlər və yaxud bu sənədlər əsasında verilən icra sənədi üzrə hesabdan silmə, habelə bu məqsədlər üçün verilmiş bank kreditlərinin hesabdan silinməsi həyata keçirilir;

965.2.3. üçüncü növbədə dövlət büdcəsinə, məcburi dövlət sosial sığorta haqları üzrə büdcədənkənar dövlət fonduna və bələdiyyələrin büdcələrinə ödənişləri nəzərdə tutan ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir;[407]

965.2.4. dördüncü növbədə verilmiş kreditlər üzrə bankın tələblərinin yerinə yetirilməsini nəzərdə tutan ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir;

965.2.5. beşinci növbədə başqa pul tələblərinin yerinə yetirilməsini nəzərdə tutan icra sənədi üzrə hesabdan silmə həyata keçirilir;

965.2.6. altıncı növbədə təqvim ardıcıllığı qaydasında digər ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir.

965.3. Bir növbəyə aid tələblər üzrə vəsait sənədlərin daxil olmasının təqvim ardıcıllığı qaydasında hesabdan silinir.

**Maddə 966. Hesab əməliyyatlarının lazımınca aparılmaması üçün bankın məsuliyyəti**

Müştəriyə gələn pul vəsaitinin vaxtında hesaba salınmadığı və ya bank tərəfindən əsassız olaraq hesabdan silindiyi, habelə pul vəsaitinin hesabdan köçürülməsi və ya hesabdan verilməsi haqqında müştərinin göstərişlərinin lazımınca yerinə yetirilmədiyi hallarda bank həmin məbləğ üçün bu Məcəllənin 449-cu maddəsində nəzərdə tutulmuş qaydada və miqdarda faizlər ödəməlidir.

**Maddə 967. Bank sirri**

967.1. Bank hesabının və bank əmanətinin, hesab əməliyyatlarının və müştəri haqqında məlumatların sirrinə bank qarantiya verir.

967.2. Bank sirri təşkil edən məlumatlar yalnız müştərilərin özlərinə və ya nümayəndələrinə verilə bilər. Dövlət orqanlarına və onların vəzifəli şəxslərinə bu cür məlumatlar yalnız qanunda nəzərdə tutulmuş hallarda və qaydada verilə bilər.

967.3. Bank sirri təşkil edən məlumatlar bank tərəfindən açıqlandığı halda hüquqları pozulmuş müştəri bankdan vurulmuş zərərin əvəzini ödəməyi tələb edə bilər.

**Maddə 968. Hesaba dair sərəncam verilməsinin məhdudlaşdırılması**

Müştərinin hesabdakı pul vəsaitinə dair sərəncam vermək hüquqlarının məhdudlaşdırılmasına yol verilmir, amma qanunda nəzərdə tutulan hallarda məhkəmənin qərarı ilə hesabdakı pul vəsaiti üzərinə həbs qoyulduğu və ya hesab əməliyyatlarının dayandırıldığı hallar istisna təşkil edir.

**Maddə 969. Bank hesabı müqaviləsinin ləğvi**

969.1. Bank hesabı müqaviləsi müştərinin ərizəsi üzrə istənilən vaxt ləğv edilir.

969.2. Əgər bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bankın tələbi ilə bank hesabı müqaviləsi məhkəmə tərəfindən aşağıdakı hallarda ləğv edilə bilər:

969.2.1. müştərinin hesabında saxlanan pul vəsaitinin məbləği bank qaydaları və ya müqavilə ilə nəzərdə tutulmuş minimum miqdardan az olduqda, bir şərtlə ki, belə məbləğ bankın bu barədə xəbərdarlıq etdiyi gündən bir ay ərzində bərpa edilməmiş olsun;

969.2.2. bir il ərzində həmin hesab üzrə əməliyyatlar aparılmadıqda, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın.

969.2.3. ciddi əsaslar olduqda, xüsusilə də bank hesabı sahibinin bank hesabından qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübut edilsin.[408]

969.3. Hesabdakı pul vəsaitinin qalığı müştəriyə verilir və ya müştərinin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən ən geci yeddi gün keçənədək başqa hesaba köçürülür.

969.4. Bank hesabı müqaviləsinin ləğv edilməsi müştərinin hesabının bağlanması üçün əsasdır.

**Maddə 970. Bankların hesabları**

Əgər qanunla, başqa hüquqi aktlarla və ya onlara uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə ayrı hal nəzərdə tutulmayıbsa, bu Məcəllənin bu fəslinin qaydaları müxbir hesablarına, müxbir subhesablarına və bankların digər hesablarına da şamil edilir.